

Hollivudun məşhur cütlüyü yenidən dünya mətbuatının gündəminə gəlib.

Dalga TV  xəbər verir ki, aktyor Bred Pitt uşaqlarına himayədarlıq etmək niyyəti ilə həyat yoldaşı,6 uşağının anası, aktrisa Ancelina Colini məhkəməyə verib.

Ancelina Coli 20 sentyabr tarixində məhkəməyə boşanma ərizəsini təqdim edib. Bundan sonra uşaqlar üzərində himayə məsələsi boşanma prosesinin əsas mövzusuna çevrildi. Hazırda hüquq-mühafizə orqanları Bred Pittin övladlarına qarşı zorakılıq edib etməməsini araşdırır. Buna görə də, aktyora öz uşaqlarını xüsusi nəzarət altında görməyə icazə verilib.

Ancelina Coli və Bred Pitt cütlüyü boşanmalarına səbəb kimi “şiddətli keçimsizliyi” göstəriblər.